*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 yanvar 2017-ci il № 2 (2119) Qiymət 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim tarixi qələbəmiz olan aprel döyüşləri münaqişənin həllini yaxınlaşdırır

*Bir sıra uğurları, əlamətdar hadisələrilə həyatımızda özünəməxsus iz buraxmış 2016-cı il tarixə qovuşdu və ümidlərlə, arzularla dolu Yeni 2017-ci il ömrümüzə qədəm qoydu. Hər şeydən öncə ötən il Azərbaycan əsgərinin aprelin əvvəllərində düşmənə endirdiyi sarsıdıcı zərbələrilə yadda qaldı. Ermənistanın işğalçı bölmələri törətdiyi təxribatların layiqli cavabını aldı. Azərbaycan hərbçiləri həm düşmən ölkəyə, həm də bütün dünyaya nəyə qadir olduğunu döyüş meydanında göstərdi.*



Silahlı Qüvvələrimizin bütün qoşun növlərində yeni tədris ilinə bir neçə gündür ki, start verilib. Tədris ilinin başlanğıcı bütün birlik, birləşmə və hərbi hissələrimizdə "Həyəcan" siqnalı ilə şəxsi heyətin çöl çıxışı və döyüş qabiliyyətinin yoxlanması ilə diqqəti cəlb etdi. Hazırda bölmələrimizdə Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına uyğun olaraq fərdi hazırlıq məşğələləri keçirilir. Sonra manqa, taqım, bölük və digər bölmələr tərkibində şəxsi heyət hərbi peşələrə yiyələnəcək, ixtisas və taktiki ustalıqlarını möhkəmləndirəcəklər. Bir daha vurğulamağa dəyər ki, Silahlı Qüvvələrimiz bu gün ən müasir silah və texnika ilə təchiz edilib, Azərbaycan əsgəri həmin silah və texnika ilə davranmağı mənimsəyib və döyüş meydanında onlardan məharətlə istifadə etməyi bacarır.

Ötən ildə olduğu kimi, 2017-ci ildə də döyüş hazırlığının durmadan artırılması, hərbi intizamın daha da möhkəmləndirilməsi, düşmənin hər bir təhdidinin qarşısına sipər çəkilməsi və hər şeydən öncə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin istənilən döyüş əmrini yerinə yetirməyə hazır olması başlıca vəzifələrdəndir.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində dövlət başçısı ölkəmiz və xalqımız üçün ən ağrılı məsələ olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və Silahlı Qüvvələrimizin fəaliyyətinə də toxunmağı özünə borc bildi.

(Ardı 2-ci səhifədə)



"Cəbhə bölgəsində xidmətdən qürur duyuram"

2-ci səhifədə



"Qələbəni döyüş hazırlığı təmin edir"

3-cü səhifədə



Ön xətdə də milli xörəklərə üstünlük verilir

5-ci səhifədə



"Bu günün kursantı sabahın zabitidir"

7-ci səhifədə

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Bizim tarixi qələbəmiz olan aprel döyüşləri münaqişənin həllini yaxınlaşdırır

(Əvvəli 1-ci səhifədə)

2016-cı ili ölkəmiz üçün iqtisadi baxımdan ən ağır illərdən biri kimi dəyərləndirsə də, Prezident İlham Əliyev Azərbaycanın inamla inkişaf etdiyini vurğuladı, Vətənimizin beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini bildirdi: "Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir".

Qondarma "Dağlıq Qarabağ" qurumunu heç bir ölkənin tanımadığını qeyd edən Ali Baş Komandan münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalı olduğunu bir daha bəyan etdi: "Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir".



Dövlət başçısı bayram təbrikilə xalqa müraciətində Silahlı Qüvvələrimizin döyüş hazırlığı ilə bağlı əldə etdiyi nailiyyətlərdən, Azərbaycan zabit və əsgərlərinin cəsurluğundan da danışıb. 2016-cı ilin bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacağını deyən Azərbaycan Prezidenti 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, işğal edilmiş torpaqlarının bir hissəsini Azərbaycanın işğalçılardan azad etdiyini qürur hissilə dilə gətirdi: "Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır".

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımıza müraciətində Dağlıq Qarabağ münaqişəsinin həllilə bağlı Azərbaycan dövlətinin qəti mövqeyini bir daha səsləndirdi. Ölkə rəhbəri sanki üzünü Ermənistan rəhbərliyinə və xam xəyallarla yaşayan bütün ermənilərə tutaraq dedi: "Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır".

Dövlət başçısının iftixar hissilə aprel döyüşlərinə verdiyi qiymət, təbii ki, Silahlı Qüvvələrimizin şəxsi heyətini öz vəzifələrinə daha məsuliyyətlə yanaşmağa, yeni tədris ilində planlaşdırılan bütün döyüş hazırlığı tədbirlərində, məşğələ və təlimlərdə böyük səylə çalışmağa sövq edir.

Hazırda bölmələrimiz həm düşmənlə üzbəüz təmas xətti boyunca müdafiə mövqelərində gecə-gündüz demədən, ayıq-sayıq döyüş növbəsi aparır, həm də hazırlıqlı zabit və mütəxəssislərimiz tərəfindən həyata keçirilən dərslərdə müasir döyüş texnikasının sirlərinə yiyələnir, taktiki bacarıqlarını artırırlar. Döyüş bacarığının yüksəldilməsi üçün atılan bu addımlar Azərbaycan Silahlı Qüvvələrinin gücünə güc qatır, Qarabağ münaqişəsinin həllilə bağlı aparılan danışıqlarda ölkəmiz üçün tutarlı arqumentə çevrilir. Həmçinin Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanı münaqişənin həllinə yaxınlaşdırır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 yanvar 2017-ci il.*** Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 40 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində, Berd rayonunun Çinari, Mosesqex və Ayqepar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Ağdam və Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# "Cəbhə bölgəsində xidmətdən qürur duyuram"

*Qışın sərt keçməsinin Vətənin keşiyində dayanan əsgərlərin xidmətinə heç bir təsiri yoxdur. Çünki gecə-gündüz torpağı qoruyan dəyərli oğullar hər cür isti geyimlə, nümunəvi xidmət şəraiti ilə təmin olunublar. Ön mövqedə ilk görüşdüyüm baş leytenant İlqar Kərimov şəxsi heyətə göstərilən diqqət və qayğının yetərincə yüksək səviyyədə olduğunu bildirdi.*

Hər yan ağappaqdı. Yol-iz buz bağlayıb. Gün günortadan əyilib. Gecənin şaxtasından və gündüzün soyuğundan hələ də yollardakı gölməçələrin buzu əriməyib. Üz tutduğumuz mövqe düşmənin lap yaxınlığında yerləşən döyüş postudur. Baş leytenant İlqar Kərimov müdafiə mövqeyində dayanan əsgərlərlə müntəzəm əlaqə saxladığını, tez-tez onlara baş çəkdiyini söylədi.



İlk baxışdan yüksək intizamı ilə diqqət çəkən bölmə komandirilə tanış oluram. Hərbçi ailəsində dünyaya göz açdığını deyən zabit ailədə üç qardaş olduqlarını, iki qardaşın ata yolunu davam etdirdiyini dedi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirəndən sonra o, zabit kimi bu hərbi hissədə xidmətə başlayıb. O vaxtdan düşmənlə təmas xəttindədir. Ürəyi Vətən sevgisi ilə döyünən hərbçi təbiliyində olan əsgərləri də bu ruhda tərbiyə edir.

Bəstəboy, idmançı görkəmli əsgər müşahidə aparır. Əsgər Kamran Nuriyev yarım ildən çoxdur ki, hərbi xidmətdədir. Tovuz rayonunun Çeşməli kəndindəndir. Əsgər düşmənlə təmas xəttində xidmət etməkdən qürur duyur. Deyir ki, hərbi xidmətinin ilk dövründə tuşlayıcı ixtisası üzrə mükəmməl biliklərə yiyələnib. İndi bacarıqlı pulemyotçu kimi istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir.

Əsgər K.Nuriyev deyir:

- Biz burada gecə-gündüz növbə aparırıq. Düşmən tərəfdən nə müşahidə edilsə, bu barədə komanda məntəqəsinə məlumat veririk. Hər an düşmən atəşkəsi pozub mövqelərimizə basqın edə bilər. Bizim vəzifəmiz onların niyyətini vaxtında aşkar edib məqsədlərinə nail olmağa imkan verməməkdi. Bu cür cəhdlər əvvəllər də olub. Sayıqlığımız nəticəsində düşməni zərərsizləşdirmişik.

Tovuzlu əsgər məlum aprel döyüşlərində iştirak etməsə də, özündən yaşca böyük olan silahdaşlarından çoxlu məlumat əldə edib. "Öyrəndim ki, həmin vaxt düşmən bizim mövqeləri də minaatanlardan və toplardan atəşə məruz qoyub. Lakin əvvəlcədən görülən qabaqlayıcı tədbirlərlə düşmənin təxribatının qarşısı alınıb. Döyüşçülərimiz bu mövqeləri də sayıq müdafiə ediblər.

Bu gün də ərazilərimizi qətiyyətlə qoruyuruq. Erməni tapdağı altında olan torpaqlarımızı azad etmək üçün döyüşə hər an hazırıq."

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Ön xətdən reportaj*

# “Qələbəni döyüş hazırlığı təmin edir”

*Orduda döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir əsgər və zabitdən yüksək nəzəri-hərbi biliklə yanaşı, fiziki-psixoloji hazırlıq da tələb edir. Deməli, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq hələ tam yetərli deyil. Əsası bu silahlardan istifadə qaydalarını mükəmməl öyrənmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli istifadə etməkdir.*



"N" hərbi hissəsinin kəşfiyyat və artilleriya bölmələrində apardığımız müşahidələrə əsaslanaraq demək olar ki, Azərbaycan hərbçiləri müasir texnika və silahlardan normativə uyğun istifadə edə bilir və bu sahədə təcrübələrini durmadan təkmilləşdirirlər.



Hərbi taktikadan məlumdur ki, istər müdafiə, istərsə də hücum zamanı toplardan açılan sərrast atəş döyüşün taleyini həll edir. Təsadüfi deyil ki, hələ orta əsrlərdən müharibələrdə toplardan geniş istifadə edilib. Artilleriya imkanlarına malik ordular məğlubedilməzliyi ilə seçilib.

Bunu aprel döyüşləri də bir daha sübut etdi. Ermənilər artilleriya bölmələrimizin atəşləri nəticəsində çox itkilər verdilər. Düşmənin xeyli sayda hərbi texnikası zərərsizləşdirildi. Bir sözlə, aprel döyüşlərində düşmənin əks-həmlə tətbiq edə bilməməsində artilleriyaçılarımızın rolu böyük oldu.

Bu döyüşlər ordumuzun gücünü təsdiqlədi. O da təsdiqləndi ki, ermənilərin irimiqyaslı təxribatların qarşısını almaq üçün aparılan əməliyyatda ordumuzun bölmələri yüksək döyüş qabiliyyəti nümayiş etdirib. Bütün qoşun növləri kifayət qədər yüksək döyüş hazırlığına malikdir. O cümlədən artilleriyaçılar da.

Artilleriya divizionunun ön xətdə olan şəxsi heyətilə görüşürük. Artilleriya bölməsi gündəlik fəaliyyətini davam etdirir, nəzəri-təcrübi hazırlığını artırırdı. Kapitan Sultan Həsənovun sözlərinə görə, müharibə zamanı artilleriyanın rolu böyükdür: "Tələblərə görə artilleriya qüvvələri - toplar cəbhə xəttindən bir neçə kilometr arxada yerləşdirilir. Bu, hərbi əməliyyatların artilleriya dəstəyi ilə uğurla başa çatdırılması məqsədinə hesablanır. Artilleriya bölmələrimizin şəxsi heyətinin həm mənəvi-psixoloji durumu, həm də döyüş təcrübəsi yüksək səviyyədədir. Peşəkar zabitlər əsgərlərə toplardan istifadənin sirlərini öyrədir, onların qısa vaxtda döyüş vərdişlərinə alışmaları üçün əllərindən gələni əsirgəmirlər. Peşəkar top heyətlərimiz formalaşıb. Döyüş əmri verilən anda düşmən hədəfləri toplardan zərbə altına alınacaq. Mən inanıram ki, ermənilərin işğal etdikləri rayonlarda yaratdıqları istehkam qurğularının dağıdılmasında topçularımız öz bacarıq və peşəkarlıqlarını göstərəcəklər".

Çoxsaylı artilleriya qurğularının yerləşdiyi ərazi ilə tanış olduqdan sonra əsgərlərlə söhbət etmək imkanımız yaranır. İlkin olaraq hesablayıcı manqa komandiri kiçik çavuş Seymur Veyisov manqasının istənilən vaxt döyüşə hazır olduğunu bildirir: "Artıq üç ildir müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edirəm. Müqaviləmin bitməsinə iki aya yaxın bir vaxt qalır və mən kadr heyətinə düşmək niyyətindəyəm. Torpaqlarımızın düşməndən azad olunması yolunda əməyini əsirgəməmiş atamın və əmimin yolunu davam etdirməyə söz vermişəm. Hesablayıcı kimi batareyanın baş zabitinin komandasını aldıqdan sonra atəşi idarəetmə cihazı vasitəsilə düşmənin mövqeyi ilə yerləşdiyimiz atəş mövqeyi arasında məsafəni hesablayıb top heyətinə məlumat verirəm. Biz də bilirik ki, qələbəni döyüş hazırlığı təmin edir".

Zaqatala rayonunun Çobankol kəndindən olan Orxan Şabanov isə yiyələndiyi radiotelefonçu vəzifəsinin öhdəsindən layiqincə gəldiyini bildirir. O, hesab edir ki, top heyətində ixtisasından asılı olmayaraq hər kəs yüksək hazırlığa malik olmalıdır. Zabitlərlə, əsgərlərlə söhbət də, gördüklərim də, müşahidə elədiklərim də mənə belə bir inam yaşatdı: Azərbaycan Ordusunun şəxsi heyəti yüksək döyüş hazırlığına malikdir. Bu inam xalqımızın gözlədiyi qələbənin uzaqda olmadığının göstəricisidir...

Lerik rayonundan hərbi xidmətə gələn Şahin Baxşıyev də əsgər yoldaşının sözlərini təsdiqləyir: "Doğrudur, burada hər bir ixtisasın öz yeri var. Məsələn, operator-topogeodeziyaçı olaraq teleskopik artilleriya bussolunu sıfırlayıram və əsas istiqaməti müəyyənləşdirdikdən sonra top heyətinə komanda verirəm. Qeyd edilən ixtisasları bir-birindən ayırmaq mümkün deyil. Hər biri döyüş prosesində dəqiqliyin, istiqamətin müəyyənləşdirilməsinə öz töhfəsini verir."

Top komandiri çavuş Adil İsgəndərov ön cəbhədə xidmət etməsindən qürur hissi keçirdiyini vurğulamaqla yanaşı, topçuların döyüşə tam hazır olduqlarını bildirir: "Gördüyünüz topdan düşmənin canlı qüvvəsini, müəyyən istehkam qurğularını dağıtmaq və məhv etmək üçün istifadə edilir. Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrini atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün qarşı tərəfin hədəflərini sıradan çıxarmalıyıq. Hər birimiz artilleriyanın sirlərini dərindən öyrənirik və istənilən vaxt döyüşlərə hazırıq. Məşğələlər, dərslər bilavasitə atəş mövqeyində aparılır. Məlumdur ki, artilleriya genişmiqyaslı döyüş əməliyyatlarının taleyini müəyyən edir. Buna görə də əsgərlərimizin hazırlığına ciddi fikir veririk."

Siyəzən rayonundan həqiqi hərbi xidmətə çağırılan baş tuşlayıcı Qismət Bağırov xidmət etdiyi on beş ay ərzində yetkin topçu kimi formalaşıb. Üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələn əsgər də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi artilleriya sahəsində xidmətini davam etdirəcəyinə söz verib: "Əsas vəzifəm batareyanın baş zabitindən aldığım tapşırıqları top heyətinə çatdırmaqdır. Hər birimiz topu vaxtında döyüşə hazırlamaq və lazımi tapşırıqları yerinə yetirmək əzmindəyik".

Doldurucu Nicat Hüseynzadə isə deyir ki, topçu olmaq böyük məsuliyyət tələb edir: "Artilleriya döyüşün gedişinə təsir göstərən əsas vasitələrdəndir. Xidmətim dövründə artilleriya qurğularının taktiki-texniki xüsusiyyətlərinə yiyələnmişəm. Müharibə başlayarsa, sərrast atəşlərimizlə düşməni məhv edəcəyik".

Əsgər Nicat Hüseynzadənin dediklərinə inanırıq. İnanırıq ki, əgər sülh danışıqları baş tutmasa, torpaqlarımızı işğaldan zor gücünə azad edəcəyik. Döyüşlərdə artilleriyaçılar da nəyə qadir olduqlarını təsdiqləyəcək.

Çaxmaqçı Səddam Qədirov, mərmiçi Fəhmin Mustafayev də öz vəzifələrinə hər zaman məsuliyyətlə yanaşdıqlarını və döyüş tapşırıqlarını yerinə yetirməyə qadir olduqlarını bildirdilər.

Gördüklərimizin nəticəsində qənaətə gəlirik ki, Azərbaycan Silahlı Qüvvələrinin artilleriya bölmələri də yeni uğurlu nəticələr əldə etməyə, üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Hər kəs tarixi torpaqlarımızın işğalçılardan təmizlənməsində üzərinə böyük məsuliyyət düşdüyünü dərk edir. Bu isə belə deməyə əsas verir ki, artilleriya qüvvələrimiz düşmənin obyekt və məntəqələrini, canlı qüvvəsini məhv etməyə tam hazırdır.



**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

Nümunəvi xidmət

# Bacarıqlı, qətiyyətli əsgər

Bu yerlərə ilk dəfə 24 il əvvəl ayaq basmışdım. O vaxtlar burada şiddətli döyüşlər gedirdi. Yolumuzun sağı da, solu da meşə zolağı idi. Yol yoldaşım zabit Elşən Əliquliyevlə tanışlığımız həmin illərdə olmuşdu. Ordumuzun qəhrəmanlıqlarla dolu tarixinin şahidiyik. O dövrdə taborumuz zəngin döyüş yolu keçmişdi. Həmin illəri qürurla xatırlayırıq. Qarşımızda ucalan qarlı dağlara işarə edib, "Yadındamı, o dağlarda necə döyüşlər gedib?" - döyüşçü dostum deyir. "Azərbaycan əsgəri yenə də qəhrəmanlıq səhifələri açacaq, düşmən əlində dustaq olan torpaqlarımızı işğaldan azad edəcək..."

Bu il yazın ilk günlərində düşmən cəbhədə həddini aşmağa başladı. Belə bir vaxtda Azərbaycan əsgəri hünər və şücaət göstərdi. Hərb tariximizdə aprel döyüşü kimi yeni qəhrəmanlıq səhifəsi açıldı. Bu döyüşdə əsgərlərimiz düşmənə nəyə qadir olduqlarını göstərdilər.

Düşmənlə təmas xəttindəki mövqelərimizə çatırıq. Baş leytenant Röyal Zəkiyev dayaq məntəqəsi haqda ətraflı məlumat verdi. Düşmənlə məsafənin çox yaxın olduğunu bildirdi: - Müşahidədə daim əli silahlı əsgərlərimiz dayanır. Qarşı tərəfi bir an belə gözdən qoymuruq.

- Biz müşahidəni görmə və eşitmə üsulları ilə aparırıq, - deyə zabit söhbətinə davam etdi. - Hava işıqlı olanda uzaq məsafəni aydın görürük. Gecə, yaxud dumanlı havada



görmə qabiliyyətimiz məhdudlaşır, bu zaman eşitmə üsuluna üstünlük veririk. Əsgərlər müşahidəyə çıxmazdan əvvəl bu qaydalarla təkrar tanış olurlar.

Öyrənirəm ki, təcrübəli döyüşçülərdən biri də snayper Daşqın Şahbazəliyevdir. Daşqın təcrübəli və yetərincə hərbi biliyə malik döyüşçüdü. Silahdaşlarına bilik və bacarıqlarını aşılamaqla komandirlərin yaxın köməkçisidir.

Əsgər Daşqın Şahbazəliyevlə döyüş postunda görüşdüm. Qısa söhbətimizdən məlum oldu ki, hərbi xidmətini başa vurmasına sayılı günlər qalıb. Amma müharibə başlasa, döyüşə ilk gələnlərdən biri olacağını deyir.

Yardımlı rayonundan olan əsgər aprel döyüşlərində də iştirak edib. Bacarıqlı, qətiyyətli döyüşçü kimi silahdaşları arasında hörmət qazanıb. Onunla bir yerdə xidmət edən əsgər Elşən Eyvazov deyir ki, Daşqın həm də sınanmış dostdur. "İlk dəfə onunla posta çıxmışam. Döyüş vərdişlərini mənə də həvəslə aşılayıb."

Bəli, snayper D.Şahbazəliyev silahdaşlarından xoş təəssüratla ayrılacaq. "Gələcəkdə də xidmət etdiyim əsgər yoldaşlarımla dostluğumu davam etdirəcəyəm."

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

Vətənpərvərlik

# "Vətən mənə oğul desə..."

Vətənpərvərlik ülvi hissdir. İnsan həyatda özünü dərk etdiyi gündən vətənpərvər olmalıdır, üzərində boy atıb gəzdiyi, minbir naz-nemətini daddığı Vətənini bir övlad məhəbbətilə sevməli, ona vurğun olmalıdır.

Klassik şairlərimizin, yazıçılarımızın yaradıcılığına azçox bələdəm. Onların çoxu Vətəndən yazıb, Vətənin dağını, daşını, gül-çiçəyini tərənnüm edərək oxucularına vətənpərvərlik hissləri aşılayıb. Ən çox sevdiyim, şeirlərini yanğıyla oxuduğum şairlərdən biri də Məmməd Arazdır. "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" misrası elə bilirəm ki, hamının dilində əzbərdir və hər kəsi Vətəni sonsuz məhəbbətlə sevərək onu göz bəbəyi kimi qorumağa ruhlandırır.

Ədəbiyyat dərslərinin birində müəllim bizə Məmməd Arazdan söhbət açmışdı, onun ünlü bir şair olduğunu demişdi. Şairin vətənpərvərliyi tərənnüm edən yaradıcılığından danışanda "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı" sözlərini də misal çəkmişdi. Onda baxışlarımızı duyan müəllim bu sətirlərdə böyük bir mətləbin ifadə olunduğunu bizə səbrlə, məharətlə başa salmışdı. İzah etmişdi ki, şair Vətən daşı deməklə Vətən sevgisinə diqqət çəkib. Yəni, qəlbində Vətən sevgisi olmayan, Vətəni üçün narahatlıq keçirməyən, torpağının, yurdunun təəssübkeşi olmayan şəxs əsl vətəndaş ola bilməz. Doğrudan da, bu sözlər günümüzün çağırışıdır. Vətənimizin bir parçasının düşmənlərin tapdağında olduğu bir vaxtda hər birimiz güclü vətənpərvər olmalı və düşmənlə mübarizədə gücümüzü səfərbər etməliyik.

Bu gün bir vətəndaş olaraq mən də qürurluyam ki, Vətənimiz uğrunda can əsirgəməyən qəhrəmanlarımız, igidlərimiz var. Yadımdadır, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov ikinci Şəhidlər xiyabanında dəfn edilərkən böyük bir izdiham yaşanmışdı. Böyüklü-kiçikli xalqımızın bütün nümayəndələri onu ziyarət edirdi. Onda orta məktəbdə oxuyurdum, bir gün valideynlərimlə birgə mən də onun məzarını ziyarətə getdim. Baş daşında əks olunan şəklinə baxanda fikrimdə əsl qəhrəman obrazı yarandı. Düşündüm ki, Mübarizi də düşmənlə qeyri-bərabər döyüşə aparan qüvvə onun tükənməz Vətən sevgisi olub. Əgər o Vətəni üçün narahat olmasaydı, təkbaşına döyüşə atılmazdı.

Vətəni bizə sevdirən də onun qəhrəman övladlarıdır. Mübarizlərin, Samidlərin, yüzlərlə, minlərlə belə igidimizin hesabına Vətənimiz qorunur. Qoy düşmənlərimiz də yaxşı anlasın ki, Azərbaycan adlı qüdrətli dövlətimiz və gündən-günə güclənən ordumuz var.

**Səkinə PƏNAHOVA,**
**ADPU-nun tələbəsi**

Tibb xidməti

# "Vəzifə borcumu yerinə yetirirəm"

*Tibb elminin atası Hippokrat təbabəti ən nəcib sənət adlandırıb. Deməli, bu sahədə çalışan insanlar da ən nəcib və ən həssas insanlardır. Bəli, tibb işçiləri bütün dünyada ən gərəkli, ən lazımlı sənətin sahibləri kimi qəbul edilir və tanınırlar. Çünki onlar Böyük Yaradanın insanlara verdiyi yaşamaq haqqını həssas qəlbləri ilə duyur, hər bir xəstənin sağlamlığa qovuşması üçün əllərindən gələni əsirgəmirlər.*

Xəstələrin şəfa tapmasında həkimlərlə yanaşı, tibb bacılarının da əməyi böyükdür. Onlar da əməli fəaliyyətləri ilə, həqiqətən, xəstələrə şəfa bəxş edirlər. Belə şəfalı əllərin sahibi olan bir tibb bacısı haqqında danışmaq istəyirəm. Çavuş Şəbnəm Şəfiyeva üç ildir ki, Silahlı Qüvvələrimizin sıralarında xidmət edir. Hər kəslə həmsöhbət olmağı bacaran, zəngin dünyagörüşünə malik bu tibb bacısı hazırda Silahlı Qüvvələrin Baş Klinik Hospitalının tibbi reabilitasiya bölməsində çalışır. Bu yaxınlarda reabilitasiya bölməsinin fəaliyyəti barədə yazı hazırlayanda kollektivdə çalışan həkim və tibb bacıları ilə görüşüb söhbət apamışdım. O zaman Şəbnəmin də işinə məsuliyyətli olduğunu, xəstələrə qayğıkeş münasibətini, onlarla səmimi, gülərüz, xoş rəftarını görüb haqqında bəzi qeydlər götürmüşdüm. Onda da əsl tibb bacılarına məxsus xarakterik cəhətləri hiss etmişdim.

..Şəbnəmin hərbi andiçmə mərasmi Gəncə şəhərində keçirilib. O zaman həyat yoldaşı cəbhə bölgəsində xidmət edirdi. Silahlı Qüvvələrimizin sıralarında doğma Vətənimizə xidmət yollarında eyni amala, eyni məqsədə çatmaq üçün həyat yoldaşı ilə birlikdə addımlamağı qərara alanda ailədə hər kəs sevinmişdi. Onların arasında daha çox sevinən isə Şəbnəmin atası olmuşdu. Çünki o keçmiş zabit, ehtiyatda olan polkovnik idi. Qızının andiçməsində iştirak edən ata ona hərbi formanın məsuliyyətini başa salaraq tövsiyələrini vermişdi.

"..Təbrik edirəm, qızım. Artıq Hərbi andı qəbul edib bu gündən Azərbaycan Ordusunun sıralarına daxil oldun. Sən Azərbaycan əsgərisən. Arzu edirəm ki, bu müqəddəs ada



daim şərəf gətirəsən." Şəbnəm deyir ki, andiçmə günü atasının söylədiyi bu sözlər onun yaddaşına əbədi hopub və bu tövsiyələrdən daim faydalanacaq. Ona görə də xidmətə başladığı ilk gündən vəzifə borcunun öhdəsindən bacarıqla gəlir, tapşırıqların vaxtlı-vaxtında yerinə yetirilməsində var gücünü sərf edir.

Bölməyə daxil olan xəstələri müalicə edərkən onların ağrılarının azaldığını görəndə çox sevindiyini deyən Şəbnəm aprel döyüşləri zamanı yaralanan xəstələrə fasiləsiz, gecəgündüz yardım göstərdiyini də bildirdi. Bu döyüşlər onu da ağır sınaqlardan üzüağ, alnıaçıq çıxartdı: "Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmət edən bir tibb bacısı kimi torpaqlarımızın bir hissəsinin düşmən işğalında olmasını, xalqımızın müharibə şəraitində yaşamasını dərindən dərk edirəm. Üzərimə düşən vəzifə borclarımın vicdanla yerinə yetirilməsində var qüvvəmlə çalışacağıma hər zaman hazırlıqlıyam. Yaxşı bilirik ki, müharibə qansız-qadasız olmur. Hələ Böyük Vətən müharibəsi illərində, Qarabağ müharibəsində fədakar tibb bacılarının qorxmazlığı, cəsarətliliyi haqqında indi də danışılır. Onlar ağır döyüşlərdə yaralılara ilk tibbi yardım göstəriblər. Ağır yaralıların təcili təxliyyə olunmasında fəallıqları ilə fərqləniblər. Belə çətin sınaqlardan çıxan tibb bacılarının döyüş yolu bizə örnəkdir."

İki oğul övladını Vətənə, torpağa məhəbbət ruhunda tərbiyə edən Şəbnəmin həyat yoldaşı da hərbi həkim peşəsində ordumuzda xidmət edir. Tibb xidməti mayorudur. O da aprelin əvvəllərində ordumuzun əks-həmlə əməliyyatları zamanı cəbhə xəttinə ezam olunaraq vəzifə borcunu layiqincə yerinə yetirib.

Bu gün Şəbnəm Şəfiyeva peşəsinin sirlərinə dərindən yiyələnərək təcrübəli tibb bacısı kimi ekstremal şəraitdə üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə tam inamlıdır. Onda bu əminliyi yaradan isə dəfələrlə peşə təlimlərində yüksək nəticələr göstərməsidir.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Ön xətdə də milli xörəklərə üstünlük verilir



*Azərbaycan dövlətinin sürətli iqtisadi inkişafı nəticəsində Silahlı Qüvvələrimizin maddi-texniki bazası möhkəmləndirilib və ordumuz müstəqilliyimizin, ərazi bütövlüyümüzün əsas dayağına çevrilib. Bu baxımdan Azərbaycanda gedən ordu quruculuğu prosesi dövlətimizin milli maraqlarının təmin edilməsi yolunda mayak və ölkəmizin qələbəsini şərtləndirən kifayət qədər mühüm amildir. Odur ki, Azərbaycan dünyada həm də müasir döyüş imkanlarına malik olması ilə diqqəti cəlb edir. Qarşısında dayanan vəzifələri çevik, operativ və yüksək dəqiqliklə yerinə yetirmək imkanlarına malik olan ordumuzun müasir səviyyədə formalaşması olduqca qürurvericidir.*

Ön xətdə yerləşən artilleriya divizionu ilə tanışlığımız bir daha sübut etdi ki, hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, sağlamlıq durumu, məişət problemlərinin həlli, eləcə də hərbi biliklərin dərinləşməsi yönündə məqsədyönlü, uğurlu tədbirlər həyata keçirilməkdədir.

Ezamiyyət zamanı artilleriya divizionunun əsgər yeməkxanasına da baş çəkdik. Gəlişimiz nahar fasiləsinə təsadüf etdi, şəxsi heyət yeməkxananın qarşısında düzülmüşdü. Əsgərlər komanda aldıqdan sonra baş geyimlərini çıxardıb ardıcıllıqla yeməkxanaya daxil olurlar. Əsgər yeməkxanası ilə ilk tanışlıqdan əmin olduq ki, əsgərlərin gündəlik qidalanması lazımi səviyyədədir. Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Gündəlik yeməklərin hazırlanması ilə məşğul olan hərbi və mülki işçilərin xüsusi geyimdə olması da bu qənaəti bir daha gücləndirir.

Şəxsi heyətin qida rasionu ilə maraqlanmaq məqsədilə ilk yaxınlaşdığımız şəxs baş aşpaz Aybəniz Süleymanova olur. Öyrənirik ki, kiçik çavuş Süleymanova üç ildir bu hərbi hissədə xidmət edir və əsgərlərimizin milli xörəklərlə qidalanması işinə öz töhfəsini verir.

- Bu gün Azərbaycan Ordusunun cəbhə xəttində, dağlıq ərazilərdə döyüş tapşırığını yerinə yetirən bölmələrinin şəxsi heyəti də yüksək kalorili qidalarla təmin olunur, - deyə Süleymanova sözə başlayır. - Əsgərlərimizin qida rasionuna təbii və qatılaşdırılmış süd, bal, meyvə, kartof, düyü, ət, balıq, yumurta, müxtəlif növ çörək, şirniyyat növləri, təbii şirə, tərəvəz məhsulları və s. daxildir. Bundan başqa əsgərlərə hər gün tərəvəzdən hazırlanmış müxtəlif şorabalar və salatlar da verilir. Bir sözlə, şəxsi heyət üçün nəzərdə tutulmuş qida rasionu son dərəcə zəngindir. Xoşdur ki, əsgərlərə milli mətbəximizə aid olan yeməklər verilir.



Aşpazlar Afət Kərimova və Aynurə Əfəndiyeva isə söhbətlərində qeyd etdilər ki, aşpazlıq sənəti Allah vergisidir. Hər iki aşpaz əsgərlərin qidalanmasının ilk növbədə hərbi hissənin hərbi hazırlıq planı əsasında aparıldığını bildirdi. Bu gün torpağını, Vətənini qoruyan əsgərin xidmətində dayanmaq da şərəflidir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidməti borclarını yerinə yetirdiklərini bildirən zərif cinsin nümayəndələri əsgərlər üçün keyfiyyətli yeməklər hazırlamaqla mənəvi rahatlıq tapdıqlarını söylədilər.

Aşpaz Qübarə Şükürova, təmizləyicilər Firuzə Dostuyeva, Pərvanə Orucova, Məryəm Əmrahova bildirdilər ki, əsgər yeməkxanasının müasir tələblərə uyğun tikilməsi, yeməkxananın mətbəx avadanlıqları - ətçəkən, tərəvəzdoğrayan, kartovtəmizləyən, elektrik tavaları, qaz plitələri və s. ilə təmin edilməsi gördüyümüz işlərin keyfiyyətinə müsbət təsir göstərir.

Xörəklərin keyfiyyəti ilə bağlı fikirlərini öyrənmək məqsədilə əsgərlərə yaxınlaşırıq. Kiçik çavuşlar Anar Murguzov, Seymur Qəribov, əsgərlər Kamil Abıyev, Höccət Əzimov milli yeməklərin keyfiyyətindən razılıqlarını bildirdilər və ev yeməklərindən fərqlənmədiyini qeyd etdilər. Əsgər yeməkxanasında qabların yuyulması, səliqə-sahman işlərindən tutmuş yeməklərin bişirilməsinə kimi bütün təsərrüfat qayğıları mülki işçilərə həvalə olunub. İndi əsgərlərimizin öhdəsinə yalnız bir iş düşür: "Vətənə layiqincə xidmət etmək".



**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Silahlı Qüvvələrə Yardım Fonduna 79 milyon manatdan çox vəsait yığılıb

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fondunda cari il yanvarın 1-dək 79 milyon 212 min 496,09 manat, 212 min 373,88 ABŞ dolları, 5935,69 avro və 5 min rubl vəsait yığılıb.*

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

## Özbəkistan portalları Azərbaycan Xarici İşlər Nazirliyinin cəbhə xəttindəki son vəziyyətlə bağlı bəyanatını yayıb

*Daşkənddə fəaliyyət göstərən kun.uz, ziytouz.uz və sharh.uz portalları Azərbaycan Xarici İşlər Nazirliyinin cəbhə xəttindəki son vəziyyətlə bağlı bəyanatını yayıb. Bəyanatda vurğulanır ki, son zamanlar Ermənistan Vyana və Sankt-Peterburqda aparılmış danışıqları və münaqişənin sülh yolu ilə həlli istiqamətində olan səyləri pozmağa və münaqişənin əhatəsini genişləndirməyə yönəlmiş təxribatları davam etdirir.*

Sənəddə deyilir ki, 2016-cı il dekabrın 29-da Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupu Ermənistan-Azərbaycan dövlət sərhədini pozaraq növbəti təxribat həyata keçirib. Ermənistan silahlı qüvvələrinin bu təxribatının qarşısı alınıb. Ermənistan kəşfiyyat-diversiya qrupu itki verərək geri çəkilməyə məcbur edilib. Hücumun qarşısını alarkən Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu Çingiz Qurbanov həlak olub, onun cəsədi Ermənistana aparılıb.

Bəyanatda bildirilir ki, Ermənistan tərəfi ilkin olaraq cəsədin onlarda olduğunu inkar etsə də, sonradan baş vermiş insidentə görə öz məsuliyyətini gizlətmək və beynəlxalq ictimaiyyəti aldatmaq məqsədilə hadisəni dövlət sərhədinin pozulması kimi təqdim etməyə cəhd göstərib, cəsədin fotolarını sosial şəbəkələrdə yerləşdirməklə etik normaları və insani dəyərləri tapdalayaraq çirkin təbliğata və dezinformasiyaya əl atıb.

Sənəd bu cümlə ilə bitir: "Azərbaycan Respublikası beynəlxalq birliyi Ermənistanı sülhə vadar etməyə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin yerinə yetirilməsini tələb etməyə çağırır".

**AZƏRTAC**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Mövzu:** *Azərbaycan xalqının istiqlal mübarizəsi və qəhrəmanlıq ənənələri. 20 Yanvar faciəsi xalqımızın qan yaddaşıdır.*

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən, Azərbaycan xalqının milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi zamanı qəhrəmanlıq nümunələri göstərmiş Azərbaycan vətəndaşları haqqında məlumatları özündə əks etdirən kitab materiallarından istifadə etməli, öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

***SUALLAR:***

***1. Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi.***

***2. Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri.***

## *Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi*

Azərbaycan xalqı əsrlər boyu öz azadlığı uğrunda qəhrəmanlıqla mücadilə edib, müstəqillik naminə qurbanlar verib. Tarix boyu qəddar düşmənlərimiz münbit torpaqlarımızın nemətlərindən bəhrələnmək üçün Vətənimizi istila altında saxlamağa, xalqımızın azadlıq və istiqlaliyyət arzularını boğmağa çalışsalar da, buna nail ola bilməyiblər. Azadlıq qığılcımı zaman-zaman alovlanaraq xalqımızı mübarizəyə səsləyib. Belə mübarizələrdən biri də, bugünkü azadlığımıza, respublikamızın müstəqilliyə qovuşmasına yol açmış ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində yeni vüsətlə baş qaldırmış xalqımızın milli azadlıq mücadiləsidir.

1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqi, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycanla İran arasında sərhəd dirəklərinin xalq tərəfindən sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Azərbaycanda bütün gücü, möhtəşəmliyi ilə baş qaldıran milli azadlıq hərəkatının ittifaqın imperiya zülmündən əzab çəkən digər xalqları da ayağa qaldıracağından ehtiyatlanan kommunist partiyası rəhbərləri aktiv fəaliyyətə keçməyə qərar verdilər.

Mərkəzi hakimiyyət SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin vasitəsi ilə xalq hərəkatının boğulmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Sumqayıtda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək erməni mənşəli əhalinin "qondarma talanını" təşkil etdi. 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermişdi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Fövqəladə vəziyyətin başlanması gizli saxlanıldı. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00:00-da başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-də birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahlardan güclü atəşə tuturdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olunmuşdu...

Bakıya yeridilən Sovet qoşunları həmin gecə şəhərin müxtəlif yerlərində 121 nəfəri qətlə yetirdi, 700-dən artıq vətəndaş isə yaralandı və xəsarət aldı. Respublikanın digər yaşayış məntəqələrinə də Sovet ordusunun hücumu nəticəsində o günlərdə ümumilikdə 132 nəfər, o cümlədən 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. Həlak olanlardan 123-ü kişi, 5-i qadın, 4-ü isə azyaşlı uşaqlar, yaralananlardan isə 25-i qadın, 20-si uşaq idi. 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü.

Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı. Əli heç yerə çatmayan, öz rəhbərliyi tərəfindən belə ağrısı, acısı duyulmayan xalqın haqq səsinə səs verən, xalqın harayını bütün dünyaya çatdıran isə o zaman Moskvada DTK-nın nəzarəti altında yaşayan Heydər Əliyev oldu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır gündə xalqla olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin, doğma oğlunun onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildilər.

## *Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri*

1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına Sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri və bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət idi. Bu cür cinayətlərin təhqiqi, onların səbəblərinin, nəticələrinin üzə çıxarılması, təşkilatçılarının aşkarlanması məsələsində vaxt amili yoxdur və bunlar vəhşilik, soyqırımı əməllərinin təkrarlanmaması üçün xəbərdarlıq olmalıdır.

Yanvar faciəsinin bir çox səbəbləri var. Bəs bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin Sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; beşincisi, o dövrkü Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti.

Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə yalnız bir dəfə, 1995-ci ilin aprelində Türkiyədə səfərdə olarkən "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyə səhvini etiraf etsə də, xalqdan üzr istəməyi lazım bilmədi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər ilin 20 Yanvarında onların əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar qətliamı xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsində 20 Yanvar faciəsinin özünəməxsus əhəmiyyəti var. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əbəs tökülmüş qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində "Qanlı Yanvar" faciəsi kimi yadda qalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı və müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılmasını tələb etdi.

20 Yanvar müqəddəs "Şəhid" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. XX əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların basdırıldığı yer, Sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilərək xalqın yaddaşından silinmişdi. İndi isə müstəqilliyimiz, milli mənliyimiz, torpaqlarımızın azadlığı uğrunda canını fəda edən Vətən övladlarının dəfn olunduğu bu yer xalqın ziyarətgahına çevrilib. "Şəhidlər xiyabanı" - dünənimizi bu günlə, bu günümüzü sabahla birləşdirən, xalqın birliyinin, iradəsinin və qətiyyətinin nümayiş olunduğu müqəddəs bir məkandır.

Respublika rəhbərliyi tərəfindən hər zaman 20 Yanvar faciəsinin təbliğinə geniş önəm verilib. 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakıda, 20 Yanvar meydanında möhtəşəm xatirə kompleksinin ucaldılması da məhz bu məqsədə, acı, lakin şərəfli tarixin xalqın yaddaşında yaşadılmasına xidmət edir.

Bu gün 20 Yanvar faciəsində şəhid olanların xatirəsini hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq bir neçə il keçmişdir. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutmuş və bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Ancaq müstəqilliyimizin ilk illərində, 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı ədalətsiz ərazi iddiası ilə hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal olundu və bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamışdır. Ona görə də 20 Yanvar faciəsinin 27-ci ildönümü ərəfəsində hər bir Azərbaycan vətəndaşı, Azərbaycan Ordusunun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Aprelin əvvəllərində düşmən təmas xəttində növbəti dəfə təxribatlar törətdi, ön xəttə yaxın yaşayış məntəqələrimizi artilleriya silahlarından atəşə tutdu. Azərbaycan Ordusunun bölmələri düşmənin bu əməllərini cavabsız qoymadı. Əks-hücum tədbirləri nəticəsində işğalçı Ermənistan ordusunun bölmələri xeyli geriyə atıldı, kənd və qəsəbələrimizi təhlükə altında saxlayan yüksəkliklər düşməndən təmizləndi. Bu döyüşlər Azərbaycan Ordusunun qüdrətini dünyaya nümayiş etdirdi.

Artıq 2017-ci tədris ilinin hazırlıq planına əsasən, bəzi hərbi hissələrdə və birləşmələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlamışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri, taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nəticələr, hər bir nailiyyət, hər bir uğur bizi Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizədə qələbəyə daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlıqlı, həvalə olunmuş texnikanın və silahların sirlərinə mükəmməl yiyələnmiş, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər...

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

Hərbi təhsil

# “Bu günün kursantı sabahın zabitidir”

*Vətənini, azadlıq və istiqlaliyyətini sevən xalqın ruhunu məhv edəcək bir qüvvə yoxdur. Xalqımız əsrlərdən bəri öz keçmişinə sadiqliyi və vətənpərvərliyi ilə seçilib. Hər bir insan Vətənə gərəkli ömür yaşayırsa, bunu gördüyü işlərlə sübut etməlidir.*



Bu yaxınlarda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olarkən hərbi mühəndis kafedrasının müəllimi ehtiyatda olan polkovnik-leytenant Eldar Qarayevlə maraqlı söhbətimiz oldu.

Rus yazıçısı A.Çexov deyirdi ki, "Biz hamımız uşaqlıq adlı məmləkətdən gəlmişik." Düşünürəm ki, insanların həyatında bu "məmləkətin" özünəməxsus izləri daim qalır. Uşaqlıq illəri Sovet hakimiyyəti dövrünə düşən həmsöhbətimin hərb sənətinə marağı Böyük Vətən müharibəsində iştirak etmiş atasının müharibə ilə bağlı xatirələrindən yaranıb. Atasının hərbçi peşəsinə olan sevgisi Eldar Qarayevi də Ukraynada hərbi məktəbə aparıb çıxarır.

1992-ci ildən Ali Hərbi Məktəbdə xidmət edən Eldar müəllim bu gün "Döyüşün mühəndis təminatı" və "Mühəndis maneələri" fənlərini tədris edir. Ümummilli lider Heydər Əliyevin çağırışı ilə 1993-cü ildə torpaqlarımızın işğaldan qorunmasında iştirak edən ehtiyatda olan polkovnik-leytenant qeyd etdi ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan ulu öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. "Məhz onun əsasını qoyduğu Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədə formalaşıb və qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək qabiliyyətinə malikdir. Müasir tələblərə cavab verən ordumuz ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Bu günün kursantı sabahın zabitidir. Biz fəaliyyətimizi bu istiqamətdə qururuq."



Ehtiyatda olan zabit bu gün də doğma kollektivdə gənc zabitlərin hazırlanması üçün əlindən gələni əsirgəmir.

Gənc zabitlərin hazırlanmasında dünyanın inkişaf etmiş ordularının təcrübələrindən istifadə edən müəllim gələcəyin zabitləri olacaq kursantlara daha məsuliyyətli, diqqətli olmağı tövsiyə edir. "İstehkamçı zabitlər döyüşün təminatı sahəsində lazımi bilikləri və bacarıqları bu fəndə ətraflı öyrənirlər. Döyüş tapşırığını yerinə yetirərkən öndə istehkamçılar gedirlər. Onlar maneələri, keçidləri, yolları açırlar. Xalqımızın qələbə sevinci yaşadığı aprel döyüşlərində mühəndis qoşunlarının zabit və əsgərlərinin bacarığı özünü aydın surətdə təsdiqlədi. Komandirlərin həmin döyüşlərdə doğru qərar qəbul etmələri yeni nəsil komandir və rəis heyətinin yetişdiyini bir daha göstərdi. Sevindirici haldır ki, onlar bizim kursantlarımız olublar. Ümumiyyətlə, gündən-günə güclənən Azərbaycan dövləti və qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgəri düşmənlərimiz üçün daim qorxu mənbəyidir."

Bu gün hər kəsin bir amalı, məqsədi var: düşmən ayaqları altında od tutub yanan əzəli torpaqlarımızı azad etmək. Eldar müəllimin baxışlarında da bu istəyin şahidi oldum. İnanıram ki, gözlərdə köz tək yanan bu istək çox yaxında düşməni qarsıb-qovuraraq sərhədlərimizdən çox-çox uzaqlara aparacaq.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Hərbi yeniliklər, ənənələr



## Ölümsaçan T-14 tankı

Rusiyanın əsas T-14 döyüş tankı "Armat" maşınlar ailəsinə daxildir. Bu döyüş maşını yüksək atəş gücünə malik olan zirehli hücum maşınıdır və həyatda onu tankların qırıcısı adlandırırlar. T-14 tankı yeni 125 mm-lik 2A82-1M çaplı topla təchiz edilib. Qüllədə yerləşdirilib, düzünə tuşlama ilə atəş açılır. Döyüş maşınında modernləşdirilmiş 152 mm-lik "Koalisin-SV" topundan istifadə edilir. Sensor displeylə təchiz olunmuş üç nəfərlik heyəti zirehli kapsulla təmin olunub. Döyüş maşınında qlobal QLONASS və NAVSTAR sistemləri də vardır. Bundan başqa radioelektron mübarizə, radiolokasiya, vasitələrin bloka alınma, lazerli tuşlama və müasir aktiv mühafizə kompleksi ilə də təchiz edilib.

## “NEMO” minaatanın konteynerli variantı

"Patria" qrupu avtomatlaşdırılmış 120 mm-lik "NEMO" minaatanının konteynerli variantını hazırlayıb və onu Nemo Container adlandırırlar. Əvvəllər bu minaatanlar modernləşdirilmiş Chanhata adlı kiçik desant-hücum gəmilərində quraşdırılırdı. Müasir konteynerli minaatanın atəş sınağının 2017-ci ildə keçiriləcəyi gözlənilir. 120 mm-lik minaatanın təcrübi nümunəsi SİSİ (8X8) avtomobilinin şassisinə bərkidilib. Minaatanı gəmilərdə, avtomobillərdə və yerdə quraşdırmaq olar. Onun konteynerində minaatanla birgə av-



tomatlaşdırılmış qüllə qurğusu yerləşdirilib. Heyəti üç nəfərdən ibarətdir (komandir-operator və iki nəfər tuşlayıcı). Konteyner kütləvi qırğın silahından qorunmaq üçün naqil, kondisioner və müdafiə sistemi ilə təchiz olunub. Boş halda sistemin çəkisi 10 ton, döyüş komplekti ilə çəkisi 12 tondur. Bundan başqa konteyneri əlavə 3 tonluq ballistik keramik mühafizə sistemi ilə də təchiz etmək olar. "NEMO"-nun atəş uzaqlığı 10 kilometrə qədərdir, dəqiqədə 10 atəş açır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə ordusu Suriyada 48 İŞİD yaraqlısını məhv edib



Türkiyə ordusunun bazar günü Suriyada apardığı yerüstü və hava əməliyyatlarının gedişində İŞİD terror qruplaşmasının azı 48 yaraqlısı öldürülüb.

Əməliyyatlar zamanı terrorçular tərəfindən istifadə olunan məxsus 23 bina, həmçinin sığınacaq məhv edilib.

Xatırladaq ki, Türkiyə Silahlı Qüvvələri avqustun 24-dən Azad Suriya Ordusu ilə birlikdə "Fərat qalxanı" əməliyyatı həyata keçirir. Əməliyyatın məqsədi Suriya ilə həmsərhəd rayonları terrorçulardan təmizləmək və orada qaçqınların qayıtması üçün təhlükəsiz zona yaratmaqdır. Hazırda İŞİD-i Əl-Bab şəhərindən vurub çıxarmağa cəhd göstərilir.

## İranın sabiq prezidenti vəfat edib



İranın Məqsədəuyğunluq Şurasının sədri, sabiq prezident Əli Əkbər Haşimi Rəfsəncani dünyasını dəyişib.

Rəfsəncani bu gün ürək tutması səbəbi ilə xəstəxanaya yerləşdirilmişdi. Sabiq prezidentin 82 yaşında xəstəxanada keçindiyi bildirilir. Əkbər Haşimi Rəfsəncani 1989-1997-ci illərdə İranın prezidenti, 1980-1989-cu illərdə parlamentin sədri olub.

## Pakistan ilk dəfə olaraq sualtı qayıqdan qanadlı raket buraxıb



Pakistan ilk dəfə olaraq sualtı qayıqdan nüvə başlığı daşıya bilən qanadlı raket buraxıb.

Uçuş məsafəsi 450 kilometr olan qanadlı raket Hind okeanında naməlum mövqedən start götürüb. Hindistan Müdafiə Nazirliyinin mətbuat katibi Pakistanın test atışına həlelik şərh verməyib.

Qeyd edək ki, 1947-ci ildə Böyük Britaniyadan ayrılıb müstəqillik əldə etdikdən sonra Pakistan və Hindistan arasında münasibətlər gərgin olaraq qalır. Hər iki dövlət 1998-ci ildə nüvə sınaqları keçirdiyi vaxtdan indiyə qədər müxtəlif diapazonlu raketlər hazırlayır.

## Avropada kəskin soyuqlar 20 nəfərin ölümünə səbəb olub



Son günlər Avropada tüğyan edən kəskin soyuqlar 20 nəfərin ölümünə səbəb olub. Adətən qışın daha yüngül keçdiyi Yunanıstan adalarında qar yağıb, Polşada soyuq hava mənfi 30 dərəcəyə çataraq 10 nəfərin həyatına son qoyub. O cümlədən İstanbulda üç gün qar yağıb, Bosfor boğazı bağlanıb, ölkənin ən böyük hava limanında bir çox reyslər təxirə salınıb. Bəzi ölkələrdə "sarı" və "narıncı" təhlükə kodu elan olunub.

## İsraildə hərbçilərə hücumla bağlı 9 nəfər saxlanılıb



İsrail polisi Qüds şəhərində 4 hərbçinin ölümü ilə nəticələnən hücumla bağlı təhqiqat çərçivəsində 9 nəfəri saxlayıb.

Hücum edən şəxsin 28 yaşlı ərəb əsilli Fadi Kunbar olduğu bildirilir. Polisin rəsmi nümayəndəsi Luba Samrinin sözlərinə görə, saxlanılanlar arasında onun 5 qohumu da var. Onların hamısı Cəbəl Mukabir rayonunun sakinləridir. Yerli KİV-lər isə Fadi Kunbarın həyat yoldaşının və valideynlərinin də nəzarət altına alındığını yazır.

Polis, həmçinin Cəbəl Mukabir rayonunun çıxışlarında sədlər qurașdırıb. Ərazidən çıxan avtomobillər diqqətlə yoxlanılır.

**AZƏRTAC-ın materialları əsasında**

Redaksiyamızın poçtundan

# Şəhidlər hamımızın əzizimizdi

Törətdiyi qətliama haqq qazandırmaq istəyən SSRİ hökuməti Azərbaycanda milli-azadlıq hərəkatını ekstremizm, müstəqillik tələb edənləri ekstremist adlandırırdı. 70-80 yaşlı qoca ekstremistiydimi? Gözlərinin nurunu itirən yaşlı qadın ekstremistiydimi? Yaralılara yardım eləyənlər ekstremistiydimi? Məktəbli qız Larisa Məmmədova ekstremistiydimi? Mənzilinin artırmasına çıxan yaşlı qadın ekstremistiydimi? SSRİ hökuməti Azərbaycanda milli-azadlıq hərəkatını SSRİ-nin taleyinə "Qordi düyünü"mü bilirdi?..

Kəndimizin ilk şəhidi İlqar Əhmədovdu. Texniki Universitetin IV kurs tələbəsiymiş. Zamanında atamın şagirdi olub. Digərləri kimi müstəqillik tələb edənlərin sırasında tələbə "...Qolumdakı zəncirləri gərək qıram!" deyib. İmperiyanın tanklarının qarşısından geri çəkilməyib. O gecə İmperiyanın döyüş texnikalarının, qana susamış əsgərlərinin qarşısında Azərbaycana sevgidən sipər çəkilib. İmperiya elə güman edirdi ki, beş-üç güllə atınca hamı geri çəkiləcək, geri çəkilənlərin kürəyini nişan alacaqlar. Yanılırdı. Kimsə geri çəkilmədi...



Atam 1990-cı ilin 19 yanvar gecəsi şəhid olan İlqar Əhmədovu, az sonra Qazançı kəndi uğrunda döyüşlərdə şəhid olan leytenant Etibar Namazovu, Kəlbəcərdə şəhid olan Yaşar Göyüşovu həmişə kövrəkliklə xatırlayır. "Duyğusalıydılar. Vətənin nə olduğunu çoxlarından yaxşı dərk edirdilər. Etibarla Yaşarın məzarı yoxdu. İlqarın anası sağlamlığı imkan vermədiyindən Bakıya gələ bilməyib, o, Faxralıda dəfn edilib. İlqarın məzarını ziyarət edəndə elə bilirəm ki, Etibarın da, Yaşarın da məzarını ziyarət edirəm", - deyir. Kəlmələr dodaqlarını yandıra-yandıra deyir. Faxralıda İlqar Əhmədovun məzarı üstündə Azərbaycan bayrağı dalğalanır. İlqarın da istəyinin təntənəsi kimi dalğalanır. Hər il yanvarın 20-də Faxralı orta məktəblərinin (kənddə iki orta məktəb var) şagirdləri də, müəllimləri də şəhid İlqar Əhmədovun məzarını ziyarət edirlər...

Qətliamın səhəri böyük tarixi şəxsiyyət Heydər Əliyev təhlükəyə, təxribat ehtimallarına məhəl qoymadan Moskvada Azərbaycanın daimi nümayəndəliyinin qarşısında çıxışında faciənin günahkarlarının cəzalandırılmasını tələb etdi. Bu, 20 Yanvar faciəsinə verilən ilk siyasi qiymət idi...

2016-cı ilin 20 yanvarında Şəhidlər xiyabanında bir ata görmüşdüm. Şəhidlərimizi ziyarətə iki uşağı ilə gəlmişdi. Az sonra bildik ki, o atanın atası qanlı şənbə gecəsi şəhid olub. O ata atasının üzünü görməyib; 20 Yanvar şəhidlərinin övladları şəhid babalarını bu ağrılarla ziyarət edir...

Atamın keçən il yazdığı "Şəhidlər xiyabanında düşüncələr" məqaləsi məni çox kövrəltmişdi. Kövrəltdiyi qədər də qürurlandırmışdı; atam mənə xitabən yazmışdı ki, şəhidlər sənin qardaşındı, əmindi, dayındı. Atamın bu qənaətini bir həqiqətin təsdiqi bilmişdim: şəhidlər hamımızın əzizimizdi...

Şəhidlərimizin ziyarətinə bu il də gedəcəm. Atamla, anamla, qızımla, qızımın atasıyla. Qızım yenə kövrələcək, yenə nələrsə soruşacaq. Onun ruh sarsıdan sorğularını cavablandıracağıq. Dediklərimizin cazibəsində böyüyəcək. Şəhidliyin nə olduğunu onda dərk edəcək. O da xalqımızın mübarizə, müstəqillik əzmiylə, döyüşkən ruhuyla fəxr edəcək. O da Ulu Öndərimizin "Mən həmişə fəxr etmişəm, indi də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamını ömür yoluna işıq bilənlərin sırasında olacaq...

20 Yanvar tarixdi.

Bu tarix - bu şəhidlik bəlkə də müstəqilliyimizin başlanğıcıdı?!

Nə o qanlı şənbə gecəsi unudulacaq, nə də şəhidlərimiz. Biz unutmuruq, övladlarımız unutmayacaq. İmperiyanı sarsıdan, İmperiyanı diz çökdürüb tarixin qara səhifəsində gömən şəhidliyimizi - şəhidlərimizi "Mən azərbaycanlıyam!" deyənlərin heç biri unutmayacaq...

Şəhidlər hamımızın əzizimizdi. Hamımızın!..

**Gülsurə HÜSEYNOVA**




# Şəhidlərimiz unudulmayacaq

20 Yanvarı hamı eyni hisslərlə xatırlayır: bu dəhşəti törədənlərə nifrət. Azərbaycan hər zaman öz qonşularına qarşı mehriban olmuşdur. Bundan istifadə edənlər də az olmamışdır. Azərbaycan xalqına xas xüsusiyyətləri özlərininki kimi göstərməkdən belə çəkinməmişlər. İndi də çəkinmirlər.

Hər zaman Bakı nefti mənfur düşmənlərimizin diqqət mərkəzində olmuşdur. Hələ 1918-ci ilin mayında neft hasilatı Sovet Rusiyasının tələbatı üçün 180 min tondan 293 min tona çatdırıldı. Həmin ilin avqustunda əvəzi ödənmədən Sovet Rusiyasına 1 milyon 300 min ton neft və neft məhsulları göndərildi. Bu hələ başlanğıc idi...

Sovet Rusiyası Dağlıq Qarabağın ermənilərə məxsus olduğuna qəti münasibət bildirmədi. Bu isə xalqın kütləvi narazılığına səbəb oldu. Bunun qarşılığını isə 1923-cü il 7 iyul tarixində Dağlıq Qarabağ Muxtar vilayətini (DQMV) yaratmaqla aldılar və bu, 1923-1991-ci ilə qədər mövcud olaraq qaldı.

1990-cı ildə Azərbaycanda ictimai-siyasi proseslər, xalq hərəkatı imperiya rəhbərlərini qorxuya salmışdı. Fövqəladə vəziyyət elan olunanadək hərbi qulluqçular onlarla günahsız vətəndaşımızı amansızcasına qətlə yetirmiş, ölümcül yaralamışdı. SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Bu fərmansa qırğın törədərək əhalini qorxuya salmaq üçün gizlədildi. Əhaliyə məlumat verilməsin deyə yanvarın 19-da axşam saat 20:00 radələrində dövlət televiziyasının enerji bloku partladıldı. 20-si günü Sovet ordusu Bakıya hücum edərək qırğınlar törətdi. Əhali amansız zülmə məruz qaldı. 132 nəfər öldürüldü, 744 nəfər yaralandı, 400 nəfər günahsız və səbəbsiz yerə həbs olundu, 4 nəfər itkin düşdü. Həlak olanların sırasında qadınlar, uşaqlar, qocalar, həmçinin təcili yardım maşınlarının işçiləri, milislər də olmuşdu.

Yanvar faciəsinin ertəsi günü öz həyatını təhlükə altına qoyaraq Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedərək imperiyanın Azərbaycana qoşun yeritdiyini və günahsız insanlara divan tutulduğunu bütün dünyaya bəyan etdi.

Xalq öz qəhrəmanlarını heç zaman unutmur, şəhidlərimiz daima yaddaşlarda milli qürur və fəxarət hissiylə yad olunurlar. Həmin gün şəhidlərimiz Vətən qarşısında öz borclarını yerinə yetirdilər və sinələrini güllələrə, haqsızlığa, vəhşiliyə sipər etdilər. Şəhidlər - dünənimizlə bu günümüz arasında körpüdür. Məzarları Vətənin pozulmaz sərhədləridir. Aprel şəhidlərimiz də bunu bir daha sübut etdi. Başımız bir daha qürur hissiylə ucaldı. 20 Yanvarda şəhid olan Larisa Məmmədova, Azad Mirzəyev, Ülvi Bünyadzadə, Cavad İsmayılov və başqalarının qanı heç vaxt yerdə qalmayacaq və biz hər zaman öz şəhidlərimizi kədər yox, qürur hissiylə anacağıq!

20 Yanvar şəhidləri dövlət müstəqilliyimizin bərpası naminə şəhid oldular. Onlar həmişə ehtiramla xatırlanacaqlar.

**Hüsniyyə İDRİSOVA**

# İdman

## Azərbaycan şahmatçısı Bazeldə beynəlxalq turnirin qalibi olub



Azərbaycan şahmatçısı Eltac Səfərli Bazel şəhərində keçirilən beynəlxalq turnirin qalibi olub.

E.Səfərli 9 turun nəticələrinə görə 7 xal toplayaraq birinci yeri tutub. Son turda o, həmyerlisi Nicat Abbasovla heç-heçə oynayıb. Şahmatçımız çinli Cin Şi Bay və fransalı Kristian Bauerlə eyni xal toplasa da əlavə göstəricilərə görə qalib elan olunub.

Yanvarın 2-8-də keçirilən Beynəlxalq Şahmat Festivalına 107 şahmatçı qatılıb. Azərbaycanı, həmçinin Nicat Abbasov və Vüqar Əsədli təmsil ediblər.

## "Neftçi"nin növbəti rəqibi Özbəkistan klubu olacaq




Antalyada təlim-məşq toplanışında olan Bakının "Neftçi" futbol klubu növbəti yoxlama oyununu yanvarın 11-də keçirəcək.

Rəqib Özbəkistanın "Nasaf" komandası olacaq. "Bellis Deluxe" otelinin meydançasında keçiriləcək görüş Bakı vaxtı ilə saat 18:00-da start götürəcək.

Xatırladaq ki, "Neftçi" hazırlıq çərçivəsində keçirdiyi ilk yoxlama oyununda Türkiyənin "Sivasspor" klubu ilə qarşılaşıb və görüşdə hesab açılmayıb.

## Azərbaycan triatlonçusu beynəlxalq reytinq cədvəlindəki mövqeyini qoruyub



Beynəlxalq Triatlon İttifaqı idmançıların 2017-ci ildə ilk reytinq cədvəlini açıqlayıb.

Azərbaycan milli komandasının üzvü Rostislav Pevtsovun reytinq cədvəlindəki mövqeyi dəyişməyib. Belə ki, R.Pevtsov 3209,77 xalla 17-ci pillədədir. Reytinq cədvəlinə ispaniyalı Mario Molaya liderlik edir. Böyük Britaniya təmsilçisi Conatan Braunli ikinci, digər ispaniyalı triatlonçu Fernando Alarza isə üçüncüdür.

## Olimpiya çempionumuz Radik İsayev beynəlxalq reytinq siyahısında ilk pillədəki mövqeyini qoruyub



Dünya Taekvando Federasiyasının (DTF) cari ilin yanvar ayı üçün reytinq siyahıları açıqlanıb. Siyahı Azərbaycan üçün uğurludur.

Olimpiya və dünya reytinq cədvəlinin ilk onluğunda üç Azərbaycan təmsilçisi yer alıb.

Azərbaycanın millisinin üzvü, Olimpiya və dünya çempionumuz Radik İsayev (80 kqdan yuxarı) Olimpiya reytinq siyahısında ötən ayda olduğu kimi yenə də bütün rəqiblərindən üstündür. Onun aktivində 504.7 xal var. Dünya reytinq cədvəlində isə 341.04 xalla R.İsayev ikinci pillədə qərarlaşıb.

"Rio-2016" Olimpiadasının bürünc medalçısı Milad Beigi Harçeqani (80 kq) həm Olimpiya, həm də dünya reytinq cədvəlində üç pillə irəliləyərək 336,23 xalla ikinci yerə yüksəlib.

Avropa Oyunlarının qalibi Ayxan Tağızadə 68 kiloqram çəki dərəcəsində dörd pillə irəliləməklə 175,82 reytinq xalı ilə səkkizinci pillədə qərarlaşıb. İdmançımız dünya reytinq cədvəlində isə 167.67 xalla yeddinci yerə qalxıb.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 12
Nüsxə 4650